**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
F-395 nömrəli 04 09 2020-
tarixli qərarı ilə təsdiq edilmişdir.

ra/ VƏTƏNDAŞLARIN
JäMÖRACİƏTLƏRİİLƏIŞ
UNİKASİYA
esi *i*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# BAKALAVRİAT SƏVİYYƏSİNİN

# İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri ve adı: 050314 - Rejissorluq**

**BAKI - 2020**

BAKALAVRİAT SƏVİYYƏSİNİN 050314 - REJİSSORLUQ İXTİSASI ÜZRƏ

TƏHSİL PROQRAMI

1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin 050314 - Rejissorluq ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və 050314 - Rejissorluq İxtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

2. Məzunun kom petensiya lari

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı Ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmalıdır, qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

- gələcək peşə fəaliyyətlərinə dair normativ və hüquqi sənədlərin tərtibinə və onlardan istifadə etməyə, pozulmuş hüquqların bərpa yollarına;
- sağlam həyat tərzini qoruyub saxlamağa;
- mədəniyyətlərarası dialoqa hazır olmağa;
- tənqid və ozünətənqid vərdişlərinə yiyələnməyə;
- yeni İdeyalar irəli sürmək və əsaslandırmağa;
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək bacarığına malik olmağa.

*Qeyd: İxtisasın spesifikasından asılı olaraq ümumi kompetensiyalara əlavələr edilə bilər.*

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalara yiyələnməlidir:

## Teatr rejissoru sahəsi üzrə:

- K.S.Stanislavski sisteminin əsas prinsiplərini, peşə vərdişlərini mənimsəməlidir. Səhnədə faktları qiymətləndirməyi bacarmalı, müşahidə qabiliyyətinə yiyələnməlidir:
- diqqəti ali məqsədə yönəltməyi, təxəyyül, emosional yaddaş, ünsiyyət, həqiqət hissi, temporitm, hadisələr xətti və s. sənət elementlərini çalışmalarla reallaşdırmağı bacarmalıdı.
- Səhnədə təklif olunan şəraiti qavramalı, çalışmalardan tədricən kiçik etüdlərə keçid mərhələlərində daha mürəkkəb vəziyyətləri işləməyi bacarmalıdır.
- tək , cüt və kollektiv etüdləri yerinə yetiməyi bacarmalıdır.
- Mətn seçmək və mətnlə işləmək, dramaturji material üzərində iş zamanı müəllifin ideya məramını bədii obrazların xarakterik xüsusiyyətlərini dürüst anlamağı və səhnədə təcəssüm etmək vərdişinə malik olmalıdır.
- Rejissorun aktyorla işi ilə bağlı müxtəlif nəzəri biliklərin və təcrübənin formalaşması prosesində aktyor müxtəlif sistemlər, məktəblər haqqında məlumatları əldə etmək bacarığına malik olmalıdır.
- peşə fəaliyyətində müxtəlif janrlı səhnə və ekran əsərlərində (teatr, kino, televiziya) müvafiq ifadə vasitələrindən istifadə etmək başanğına malik olmalıdır.
- öz rolunun rejissor niyyətinə uyğun yozumunu müstəqil işləmək baçarığına yiyələnməli, tipaj seçimində müxtəlif üsul və vasitələrdən istifadə etməyi bacarmalııdır.
- tamaşaların və filmlərin estetik prinsiplərini müəyyən etməyi, aktyor oyunu vasitəsi ilə rejissor niyyətinin konseptual həllinə nail olmalıdır.
- Kamera qarşısında təbii oyun tərzini, yaradıcılıq ovqatını rejissor məqsədinə müvafiq şəkildə təqdim etməyi bacarmalıdır.
- iri planda müddetli rakursları və baxışın istiqamətini qavramağı, eləcə də “maska” ilə iş - mimik "sıxılmalan” aradan qaldırmağa nail olmalıdın
- ümumi, orta və İri planda ifadəli oynamağı bacarmahıdır.

kadrda bədənin plastik rakursunu məqsədəmüvafiq təqdim etmək, rejissor niyyətini yerinə yetirərkən bədii məqsədin tələb edilən formatını saxlamaqla kamera qarşısında psixoloji jestdən istifadə prinsiplərinə yiyələnməlidir.

kadrda səs və nitqdən düzgün, dəqiq və yerində istifadə etmək, hadisələri canlandırmağı və improvizəni, iki və daha çox tərəf-müqabili ilə dialoqda iştirak etmək baçarığını əldə etməlidir.

kamera qarşısında təbii və emosional oynamaq, kadrda halət, hiss və emosiyaları rejissor məqsədinə müvafiq canlandırmaq qabiliyyətinə yiyələnməlidir.

kadrdaxili miqyas şərtlərinə, obyektivin fokus məsafəsi və hiperfokal dərinliklə reallaşan optik qabartma, eləcə də işıq rəsminə müvafiq konkret vəziyyəti, hiss və emosiyaları rejissor yozumuna uyğun canlandırmağı bacarmahıdır.

konkret miqyas planına (iri, orta və ya ümumi plan), eləcə də kadrdaxili dərin mizana uyğun “jest ve mimlərin dili”ndən peşəkar səviyyədə İstifadə etməyi, çəkiliş planlarının montaj ardıcıllığına müvafiq hərəkət və baxışın istiqamətini qavramalı, hərəkətli ifa prosesində fəzanı hiss edərək qüsursuz koordinasiyaya yiyələnməlidir.

kamera qarşısında ifa prosesində fiziki hərəkətlərin dəqiqliyini, plastik həllin qüsursuzluğunu, mətn və hərəkətlərin vəhdətini kadrdaxili mizanın temporitminə uyğun şəkildə təmin etməyi bacarmahıdır.

rejissorun tapşırığını yerinə yetirərkən rolun vəziyyətdən irəli gələn formatını saxlamaq məqsədilə, kamera qarşısında psixoloji jest və mimlər, yəni obrazin fotogenikliyini təmin edən zahiri əlamətlərlə yanaşı, səs və nitqdən düzgün istifadə etməyin, daha ifadəli ifa tərzinə nail olmağın sirrlərini mənimsəməyi bacarmahıdır.

iki və daha çox tərəf müqabili ilə dialoqda iştirak etmək və hətta kameranı idarə edən kameramanı həmin dialoqa dəvət etmək məharətinə yiyələnməlidir.

## Kino rejissoru sahəsi üzrə:

Kino rejissoru sənətinə aid audiovizual ifadə elementlərinin yaranma, rəngkarlıq və fotoqrafiyada təkmilləşdirilərək kinoya ötürülmə, dünya kinosunda rejissor peşəsinin formalaşaraq unikal sənət sahəsinə çevrilmə tarixi ilə bağlı sistemli və dərin bilgilərə malik olmalıdır.

kinematoqrafın modelləri - prodüser kinosunun müstəqil filmlərdən fərqi, rejissor-ssenari müəllifi, rejissor-operator, rejissor-rəssam, rejissor-bəstəkar, rejissor-prodüser münasibətlərini, audiovizual əsərin bütün mərhələləri bilməlidir.

pre-preduction, production, post-production və promotion mərhələləri ilə ətraflı tanış olmalı, təcrübi vərdişlər əldə etməlidir.

rejissor konsepsiyasını, rejissor ssenarisi və ona əsasən hazırlanan “Storyboard”da və daha sonra ekranda maddiləşməsinin təmin olunma qaydalarını mənimsəməlidir.

bədii İfadə vasitələrinin ən mühüm hissəsi hesab edilən montaj və onun qaydaları ilə tanış olmalı, montaj təfəkkürü, texnikası və növləri ilə müəllif fikrini qabartmağı bacarmalıdır.

Xüsusi effektlər və onların kinematoqrafiyada istifadə zərurəti və spesifikası, optik, mexaniki, vizual effektlər, kompüter texnologiyası və onların mahiyyətini bilməlidir.

kinematoqrafın bir qolu olan animasiya filmləri, animasiyada həm müstəqil, həm də digər sahələrlə sintezli şəkildə istifadə zərurəti haqqında ətraflı bilgilər almalıdır.

K.S.Stanislavski sisteminin əsas prinsiplərinin, iş və hərəkətin aktyor sənətinin əsas vasitəsi olmasını dərindən mənimsəməlidir.

Səhnədə və mizankadrda faktları qiymətləndirilməyi bacarmalıidır.

Müşahidə qabiliyyətini /‘görmə kinolenti"ni inkişaf etdirməlidir. Diqqəti ali məqsədə yönəltməyi, əzələ sərbəstliyi, təsəvvür, emosional yaddaş, ünsiyyət, həqiqət hissi, temporitm və s. haqqında nəzəri biliklər əldə etməli və onları çalışmalarla reallaşdırmağı bacarmalıdır.

Səhnədə təklif olunan vəziyyəti qavramahdır.Çalışmalardan tədricən kiçik etüdlərə keçəndə mərhələlərlə təklif olunmuş daha mürəkkəb və konflikti daha kəskin şəraitdə işləməmək bacarığına malik olmalı, tək, cüt və kollektiv etüdləri (sözsüz və sözlü) yerinə yetirməyi bacarmalıdır.

Mətn seçmək və mətnlə işləmək səriştəsinə nail olmalıdır. Dramaturji material üzərində iş zamanı sözaltı

mənanı duya bilməlidir. Obrazın xarakterik xüsusiyyətlərini anlamağı və onu səhnədə təcəssüm etməyi bacarmalı/dır.

Rejissorun aktyorla işi ilə bağlı müxtəlif nəzəri və praktik biliklərin formalaşmasına nail olmalıdır.

müxtəlif sistemlər, məktəblər haqqında məlumatları əldə etməlidir.

Peşə fəaliyyətində müxtəlif janrlı səhnə və ekran əsərlərində (teatr, kino, televiziya) müvafiq ifadə vasitələrindən istifadə etmək başarığına malik olmalıdır. Rol üzərində rejissor niyyətinə uyğun müstəqil işləməyi bacarmalıdır.

Aktyor və tipaj seçimində müxtəlif üsul və vasitələrdən istifadə etməyi bacarmalıdır. Teatr tamaşaları və filmlərin rejissor təhlilini etmək bacarığına yiyələnməlidir.

Tamaşa üzərində iş zamanı yaradıcı prosesin təhlilini vermək qabiliyyətini formalaşdırmağı bacarmalıdır.

Tamaşa (film) haqqında tam təsəvvür əldə etməlidir. Dram əsərinin mətni (filmin ssenarisi) üzərində işləmək baçarığına malik olmalıdır. Aktyor oyunu vasitəsi ilə rejissor niyyətinin ideya- estetik konsepsiyasını aça bilməlidir.

- Kamera qarşısında təbii və emosional oynamaq, kadrda halət, hiss və emosiyaları rejissor məqsədinə müvafiq canlandırmaq qabiliyyətinə yiyələnməlidir.
- Kadrdaxili miqyas şərtlərinə, obyektivin fokus məsafəsi və hiperfokal dərinliklə reallaşan optik qabartma, eləcə də işıq rəsminə müvafiq konkret vəziyyəti, hiss və emosiyaları rejissor yozumuna uyğun canlandırmağı bacarmalı, konkret miqyas planına (iri, orta və ya ümumi plan), eləcə də kadrdaxili derin mizana uyğun “jest və mimlərin dili”ndən peşəkar səviyyədə istifadə etməyi, çəkiliş planlarının montaj ardıcıllığına müvafiq hərəkət və baxışın istiqamətini qavramağı bacarmalı, hərəkətli ifa prosesində fəzanı hiss edərək qüsursuz koordinasiyaya yiyələnməlidir:
- kamera qarşısında ifa prosesində fiziki hərəkətlərin dəqiqliyini, plastik həllin qüsursuzluğunu, mətn və hərəkətlərin vəhdətini kadrdaxili mizanın temporitminə uyğun şəkildə təmin etməyi bacarmahıdır.
- Rejissorun tapşırığını yerinə yetirərkən rolun vəziyyətdən irəli gələn formatı- saxlamaq məqsədilə, kamera qarşısında psixoloji jest və mimlər, yəni obrazin fotogenikliyini təmin edən zahiri əlamətlərlə yanaşı, səs və nitqdən düzgün istifadə etməyin, daha ifadəli ifa tərzinə nail olmağın sirrlərini mənimsəməli, kadrda hadisələri canlandırmaq və improvizə etməyi, iki və daha çox tərəf müqabili ilə dialoqda iştirak etmək və hətta kameranı İdarə edən kameramanı həmin dialoqa dəvət etmək məharətinə yiyələnməlidir.

## Televiziya rejissoru sahəsi üzrə:

-Televiziya rejissoru sənətinə aid audiovizual ifadə elementlərinin yaranma, rəngkarlıq və fotoqrafiyada təkmilləşdirilərək kinoya, daha sonra isə televiziyaya ötürülmə, kino və teleiziyada rejissor peşəsinin formalaşaraq unikal sənət sahəsinə çevrilmə tarixi ilə bağlı əhatəli və dərin bilgilər almalıdır.

-Audio-vizual televiziya məhsulunun növləri, televiziya istehsalında müstəsna funksiya daşıyan müasir prodüser sistemi, rejissor-prodüser, rejissor-ssenari müəllifi, rejissor-operator, rejissor- rəssam, rejissor-bəstəkar, rejissor-səs rejissoru, rejissor-montajçı münasibətlərini, audiovizual əsərin bütün mərhələləri bilməlidir.

- pre-production, production, post-production və promotion mərhələləri ilə ətraflı tanış olmalı, təcrübi vərdişlər əldə etməlidir.

-rejissor konsepsiyasını rejissor ssenarisi və ona əsasən hazırlanan “Storyboard"da və daha sonra ekranda maddiləməsinin təmin olunma qaydalarını mənimsəmək.

- bədii ifadə vasitələrinin ən mühüm hissəsi hesab edilən montaj və onun qaydaları ilə tanış olmaq,montaj təfəkkürü, texnikası və növləri ilə müəllif fikrini qabartmağı bacarmalıdır.

-xüsusi effektlər və onların kinematoqrafiyada istifadə zərurəti və spesifikası, optik, mexaniki, vizual

effektlər, kompüter texnologiyası və onların mahiyyəti, kinematoqrafın bir qolu olan animasiya filmləri, animasiyada həm müstəqil, həm də digər sahələrlə sintezli şəkildə istifadə zərurəti, televiziyada xüsusi effektlərə müraciəti şərtləndirən amillər haqqında ətraflı bilgilərə malik olmalıdır.

- K.S.Stanislavski sisteminin əsas prinsiplərini, iş və hərəkətin aktyor sənətində əsas vasitə olmasını yaxşı bilməlidir.
- səhnədə və mizankadrda faktları qiymətləndirməyi bacarmalıdır. Müşahidə qabiliyyətini , "görmə kinolenti"ni inkişaf etdirməlidir.
- diqqəti ali məqsədə yönəltməyi, əzələ sərbəstliyi, təsəvvür, emosional yaddaş, ünsiyyət, həqiqət hissi, temporitm və s. haqqında nəzəri biliklərə yiyələnməli və onları çalışmalarda reallaşdırmağı bacarmalıdır.

-səhnədə təklif olunan vəziyyəti qavramalı, çalışmalardan tədricən kiçik etüdlərə keçəndə mərhələlərlə təklif olunmuş daha mürəkkəb və konflikti daha kəskin şəraitdə işləməmək bacarığına malik olmalı, tək, cüt və kollektiv etüdləri (sözsüz və sözlü) yerinə yetiməyi bacarmalıdır.

- mətn seçmək və mətnlə işləmək səriştəsinə malik olmalıdır. Dramaturji material üzərində iş zamanı sözaltı mənanı duya bilməlidir. Obrazın xarakterik xüsusiyyətlərini anlamağı və onu səhnədə təcəssüm etməyi bacarmalıdır.

-rejissorun aktyorla işi ilə bağlı müxtəlif nəzəri və praktik biliklərin formalaşmasına nail olmalı, müxtəlif sistemlər, məktəblər haqqında məlumatları əldə etməlidir.

- peşə fəaliyyətində müxtəlif janrlı səhnə və ekran əsərlərində (teatr, kinoda), eləcə də televiziya layihələrində müvafiq ifadə vasitələrindən istifadə etmək başarığına malik olmalıdır.
- rol üzərində rejissor niyyətinə uyğun müstəqil işləmək baçarığına malik olmalıdır. Aktyor və tipaj seçimində müxtəlif üsul və vasitələrdən istifadə etməyi bacarmalıdır.
- teatr tamaşaları, film və telelayihələrin rejissor təhlilini etmək baçarığına yiyələnməlidir. Teletamaşa və serial üzərində iş zamanı yaradıcı prosesin təhlilini verməyi bacarmalıdır.
- teletamaşa və yaxud film haqqında tam təsəvvür əldə etməlidir. Dram əsərinin mətni (filmin ssenarisi) üzərində işləmək baçarığına malik olmalıdır. Aktyor oyunu vasitəsi ilə rejissor niyyətinin ideya-estetik konsepsiyasını aça bilməlidir.
- kamera qarşısında təbii və emosional oynamaq, kadrda halət, hiss və emosiyaları rejissor məqsədinə müvafiq canlandırmaq qabiliyyətinə yiyələnməlidir.
- kadrdaxili miqyas şərtlərinə, obyektivin fokus məsafəsi və hiperfokal dərinliklə reallaşan optik qabartma, eləcə də işıq rəsminə müvafiq konkret vəziyyəti, hiss və emosiyaları rejissor yozumuna uyğun canlandırmağı bacarmalı, konkret miqyas planına (iri, orta və ya ümumi plan), eləcə də kadrdaxili dərin mizana uyğun "jest və mimlərin dilfndən peşəkar səviyyədə istifadə etməyi bacarmalı, çəkiliş planlarının montaj ardıcıllığına müvafiq hərəkət və baxışın istiqamətini qavramalı, hərəkətli ifa prosesində fəzanı hiss edərək qüsursuz koordinasiyaya yiyələnməlidir:
- kamera qarşısında ifa prosesində fiziki hərəkətlərin dəqiqliyini, plastik həllin qüsursuzluğunu, mətn və hərəkətlərin vəhdətini kadrdaxili mizanın temporitminə uyğun şəkildə təmin etməyi bacarmalıdır.
- rejissorun tapşırığını yerinə yetirərkən rolun vəziyyətdən İrəli gələn formatını saxlamaq məqsədilə, kamera qarşısında psixoloji jest və mimlər, yəni obrazin fotogenikliyini təmin edən zahiri əlamətlərlə yanaşı, səs və nitqdən düzgün istifadə etməyi bacarmalı, daha ifadəli ifa tərzinə nail olmağın sirrlərini mənimsəməli, kadrda hadisələri canlandırmaq və improvizə etməyi, iki və daha çox tərəf müqabili ilə dialoqda İştirak etmək və hətta kameranı idarə edən kameramanı həmin dialoqa dəvət etmək məharətinə yiyələnməlidir.

dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmalıdır.

Sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş nəzəri müddəalara tanış olmalıdır., İnsanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik dəyərllyasiya, izolyasiya və aparteid siyasət modelləri haqqında biliklər əldə etməli, multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi bacarmalıdır.

Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı biliklər qazanmalıdır.

- mülki müdafiənin əsaslan, qüvvə və vasitələri, fövqəladə hallar və onların xarakteristikaları, fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiəsi haqqında bilgilərə malik olmalıdır.

  əhalinin mülki müdafiə ilə bağlı maarifləndirilməsi, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi, fövqəladə halların nəticələrinin aradan qaldırılmasının təşkilini və həyata keçirilməsini mənimsəməlidir.

  multikulturalizmin formalaşmasının əsas səbəbləri ilə bağlı biliklərə yiyələnməlidir
- dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmalıdır.
- Sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş nəzəri müddəalara tanış olmalıdır., insanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik dəyərlər və milli mentalitet, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu barədə məlumatlar ədə etməlidir.
- Multikulturalizm siyasət modelinin mahiyyəti və əhəmiyyəti, onun assimilyasiya, izolyasiya və aparteid siyasət modelləri haqqında biliklər əldə etməli, multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai- siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi bacarmalıdır.
- Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı biliklər qazanmalıdır.
- mülki müdafiənin əsaslan, qüvvə və vasitələri, fövqəladə hallar və onların xarakteristikaları, fövqəladə hallarda əhnin mühafizəsi, əhalinin mülki müdafiəsi haqqında bilgilərə malik olmalıdır.
- əhalinin mülki müdafiə ilə bağlı maarifləndirilməsi, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi, fövqəladə halların nəticələrinin aradan qaldırılmasının təşkilini və həyata keçirilməsini mənimsəməlidir Təhsil Proqramının strukturu

Cədvəl 1

| say | Fərinin adı | **AKTƏ krediti** |
|---|---|---|
| Ümumi fənlər | | |
| 1 | Azərbaycan tarixi<br>Bu fənn çərçivəsində Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və İnkişafı, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu öyrənilir və təhlil edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli şəkildə öyrənilməlidir | 5 |
| 2 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya<br>Bu fənn çərçivəsində tələbələr yazılı və şifahi nitq mədəniyyətinə yiyələnməli, auditoriya və işəgötürən qarşısında təqdimat etmək, ixtisas üzrə akademik terminologiyaya, mətnlər üzərində işə və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir | 4 |
| 3 | Xarici dildə işgüzar və akademik kommunikasiya<br>Bu fənn çərçivəsində tələbələr ixtisası üzrə xarici dillərdən birində özü və peşəsi ilə bağlı təqdimat etmək, ixtisas üzrə terminologiyanı öyrənməlidir, işgüzar yazı, şifahi ünsiyyət bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.Tələbələr tədris olunan xarici dildə kicik monoloqlar söyləməyi, səhnəciklər hazırlamağı bacarmalıdırlar. | 15 |
| 4 | Seçmə fənlər (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | |
| 4.1 | Fəlsəfə | 3 |
| | Sosiologiya | |
| | Hüququn əsasları | |
| | Məntiq | |
| | Etika və estetika | |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | 3 |
| | İnformasiyanın idarə edilməsi | |
| | Sahibkarlığın əsaslan və biznesə giriş | |
| **Cemi** | | 30 |
| **İxtisas fənləri** | | |
| 1. | İxtisasa giriş (sahələr üzrə). Teatr,ki no, televiziyanın yaranması və inkişaf meyi İləri t müasir dünya və Azərbaycan teatrı, kino və televiziyasının yaranma mərhələləri və dahi nümayəndələrinin yaradıcılığı haqqında bilgilər verilir.Hər sahə üzrə rejissorluğun özəl xüsusiyyətləri şərh edilir. | 6 |

| | | |
|---|---|---|
| 2. | Rejissor sənəti (sahələr üzrə)<br>Teatr rejissoru: Teatr rejissorluğunun əsaslan, tarixi və nəzəriyyəsi ilə bağlı biliklər verilir. Etüdlər və çalışmalar üzərində iş aparılır. Məşqlər üzərində iş aparılır, etüdün əsas vəzifəsinin və hadisəsinin təyin edilməsi, rejissorluq texnikasının elementlər. (atmosfer, temp- ritmi, mizansəhnə, kompozisiya) öyrədilir. Dram əsərlərinin rejissor təhlili .hadisənin təhlili metodu və onun qanunları Öyrədilir<br>Müstəqil seçilmiş bir pyes mövzusunda kompozisiyaların hazırlanması, onların mövzusu, ideya və janrının təyin edilməsi,səhnələşdirilməsi öyrədilir.<br>Tamaşaya hazırlığın mərhələləri:rejissor niyyəti, quruluş planı, tamaşanın ekspozisiyası, yaradışı kollektivin təşkili barədə nəzəri bilgilər verilir və əməli məşqlər keçirilir. Dram, musiqili və musiqili - dram materialın həlli üzərində iş aparılır.<br>Tamaşanın quruluş planı planı: eskiz və maketin hazırlanması öyrədilir. Tamaşanın musiqili, işıq, musiqi həlli öyrədilir<br>Kino rejissoru: Kinematoqrafın tərkib hissəsi olan dramaturgiya qanunları ilə tanışlıq, ideyanın yaranmasından başlayaraq dramaturji əsərə çevrilməsinə qədər lazım olan xüsusiyyətlər, dramaturji əsərin audiovizual əsərə transformasiya bacarığı aşılanır. Dünya praktikasında tətbiq edilən | 24 |

| | | |
|---|---|---|
| | audiovizual əsərin “loqlayn’-ından başlayaraq kinossenari və rejissor ssenarisinin yazılma qaydaları ilə tanışlıq və bununla bağlı əməli təcrübələr keçirilir. Bədii ifadə vasitələrinin ən mühüm hissəsi hesab edilən montaj və onun qaydaları ilə tanışl edilir, montaj təfəkkürü, texnikası və növləri ilə müəllif fikrini qabartmağı bacarığı aşılanır.Kinematoqrafın modelləri - prodüser kinosunun müstəqil filmlərdən fərqi, rejissor-ssenari müəllifi, rejissor-operator, rejissor-rəssam, rejissor-bəstəkar, rejissor-prodüser münasibətləri, audiovizual əsərin bütün mərhələləri: pre-production, production, post-production və promotion mərhələləri ilə ətraflı məlumatlar verilir. Xüsusi effektlər və onların kinematoqrafiyada istifadə zərurəti və spesifikası, optik, mexaniki, vizual effektlər, kompüter texnologiyası və onların mahiyyəti, kinematoqrafın bir qolu olan animasiya filmləri, animasiyada həm müstəqil, həm də digər sahələrlə sintezli şəkildə istifadə zərurəti haqqında ətraflı bilgilər verilir. Kinematoqrafda tətbiq edilən audiovizual ifadə vasitələrinin xüsusiyyətləri və onların əhəmiyyəti. İşıq və kölgə, kompozisiya qanunları və növləri, söz, musiqi və küylər, eləcə də müasir praktikada tətbiq olunan xüsusi effektlərdən istifadə üsulları mənimsədilir.<br>Televiziya rejissoru: Qarşıya qoyulan predmetdən asılı olmayaraq onu xırda detallarına qədər incələmək, ədəbi ssenari üzərində işləyərkən ideyanı müəyyənləşdirərək ali məqsədini formalaşdırmaq öyrədilir. Ədəbi materialı sözbəsöz, sətirbəsətir, cümləbəcümlə xırdalamaq üçün mövzunun sadə elementlərini bilməlidir.lə kifayətlənməyərək, onu nəzəri cəhətdən mükəmməl mənimsəmək, ideyanın maddiləşmə imkanlarını, konkret ifadə vasitələrindən istifadə zərurətini təsəvvür baçarığı aşılanır.Müxtəlif televiziya layihəsi üzərində çalışarkən öz fikirlərini həmkarlarına çatdırmaq, onların fikir və təkliflərini nəzərdən keçirmək üçün peşənin nəzəri və təcrübi aspektləri mənimsədilir.<br>Ssenari müəllifi ilə ssenari üzərində iş birliyi, audiovizual əsərin hazırlanmasında gərəkli olan təşkilatçılıq qabiliyyətini formalaşdırmaq, tamaşaçıları ekran qarşısında saxlamağın sirrlərini öyrənərək nəzəri bilikləri əməli iş ilə uzlaşdırmaq yolları öyrədilir.<br>Televiziya rejissoru: Teielayİhə istehsalının “Pre-prodact” mərhələsində rejissorun kağız üzərində işinin qüsursuz yerinə yetirilməsi üçün peşə incəliklərinə yiyələnərək qarşıya qoyulan tapşırığa peşəkar yanaşma tərzini nümayiş etdirmək yolları öyrədilir. | |
| 3. | Aktyor sənəti (sahələr üzrə). Teatr və kino aktyorluğunun prinsipial fərqlərini müəyyən etməyin prinsipləri öyrədilir. Aktyorun vəziyyətini təşkil edən dörd elementi mənimsəməsi, rolun psixoloji və hadisəli təhlili, aktyor ifasının məntiqə söykənmə zərurəti, aktyorun ifa tərzinə təsir edən janr faktorları barədə nəzəri biliklər və əməli baçarıq və vərdişlər aşılanır. Mətnin təhlili və tam mənimsənilməsi, müəllifin ideyası ətrafında fikir mübadiləsinin aparılması, təyin olunmuş çərçivədə improvizələr etmək baçarığı öyrədilir. | 8 |
| 4. | Rejissorun aktyorla işı. Aktyora rolun ali məqsədinin müəyyən olunmasında köməklik göstərməklə onları bu məqsəd ətrafında birləşdirməyin üsulları aşılanır. Tərəf müqabilləri arasında ünsiyyətə,obrazın daxili vəziyyəti ilə fiziki hərəkətlərinin orqanikasına nail olmağın yolları öyrədilir. | 16 |
| 5. | Multikulturalizmə giriş.Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin | 3 |

| | | |
|---|---|---|
| | proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | |
| 6. | Mülki müdafiə. Bu fənn çərçivəsində fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, kütləvi qırğın silahları, nüvə silahı, nüvə silahının tətbiqi və nəticələri, nüvə silahının zədələyici amilləri, radioaktiv çirklənmə, bioloji silahlardan qorunma üsulları barədə bilgilər verilir. Karantin tədbirləri, dinc və müharibə dövründə əhalinin mühafizəsinin xüsusiyyətləri fərdi mühafizə vasitələri, qəza və təbii fəlakətlər zamanı xilasetmə işlərinin təşkili və yerinə yetirilməsi qaydaları, kimyəvi silahlar tətbiq edilərkən davranış və fəaliyyət qaydaları, müxtəlif zədələnmə ocaqlarında və təbii fəlakət rayonlarında ilk tibbi yardım göstərilməsində sanitar drujinalarının təşkil olunması haqqında ən zəruri məlumatlar öyrədilir. | 3 |
| **Cəmi** | | 60 |
| Təcrübə və Yekun Dövlət Attestasiya işi | | |
| ... | Təcrübə. Təcrübələr ixtisas sahələrinə müvafiq olaraq teatrlarda , kino və telestudiyalarda,eləcə də universitetin tədris teatrında, çəkiliş pavilyonlarında, xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər | 21 |
| | Yekun Dövlət Attestasiya işi. Yekun Dövlət Attestasiya işi kimi tələbələr ixtisas sahələrinə müvafiq (tamaşa , müxtəlif janrlı film) müdafiə edirlər. | 9 |

1. Tədris və öyrənmə

1.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

1.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində və s.) açıq olmalıdır.

1.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

1.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, əməli yaradıcılıq tapşırıqları;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, rol, ifa,);
- layihələr;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;

- video və audio mühazirələr;
- distant təhsil;məsafədən təhsil
- simulyasiyalar;

*Qeyd: sadalanan metodlar İxtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

1.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

1.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 2. Qiymətləndirmə

2.1. .Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

2.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sIllabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində və s.).

2.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

2.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- əməli ixtisas fənləri üçün müvafiq meyarlar əsasında
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- təcrübə hesabatları,;
- təcrübədə, müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- tamaşalara dair hesabatlar;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;

2.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

2.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək İmkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

## 3. Proqramın təlim nəticələri

3.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sIllabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

3.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks

olunmalıdır.

3.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

4. İnfrastruktur və kadr potensialı

4.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

Teatr rejissoru, kino rejissoru, televiziya rejissoru ixtisaslşmaları üzrə bakalavr hazırlığı aparan ali məktəbin bütün fənlər üzrə sanitar-gigiyenik normalara cavab verən auditoriya fondu, tədris materialları və tədris vəsaitləri olan kitabxana və oxu zalı, videoteka və filmotekası, kompüter otağı, printer və skaner avadanlığı, İnternetə çıxışı olmalıdır. İxtisas dərsləri üçün peşəkar studiya yaxın kino, stasionar işıqlandırma cihazları olan video pavilion, xüsusi avadanlıqla təchiz edilmiş çəkiliş studiyalar (film, video, işıqlandırma), səhnə və lazımi səhnə avadanlığı (səhnə geyimləri, teatr rekvizitləri, ekranlar və digər aksessuarlar) olmalıdır. Teatr rejissoru ixtisaslaşması üçün ali məktəbin tədris teatrı, məşq, baxış və Yekun Dövlət Attestasiyasının keçirilməsi məqsədi ilə (tamaşa) səhnəli tamaşa zalları olmalıdır

4.2. Ali təhsil müəssisələrinin 050314 - Rejissorluq ixtisasının Teatr rejissoru,kino rejissoru, televiziya rejissoru ixtisaslaşmaları üzrə tədrisi həyata keçirən professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə, elmi və ya fəxri ada, incəsənətin müvafiq sahələri.dövlət və ya özəl teatr, kino, televiziya studiyalarında və şirkətlərdə ixtisas üzrə təcrübəyə malik olmalıdır. İxtisasla bağlı digər dövlət, və yaxud, özəl müəssisələrdə, təşkilatlarda çalışan yüksək ixtisaslı mütəxəsisilər də tədrisə cəlb oluna bilərlər.

5. Təcrübə

5.1. Təcrübə tələbənin nəzəri biliklərinin, əməli bacarıq və səriştələrinin təcrübədə tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

5.2. Təcrübə teatrlarda , kino və tele studiyalarda,eləcə də universitetin tədris teatrında, çəkiliş pavilyonlarında, xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər.

5.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq müəssisə ilə müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər müəssisədə, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

5.4. Təcrübə ali məktəb tərəfindən təyin edilmiş təcürbə rəhbəri və təcürbə keçirilən müəssisədəki tələbəyə təhkim olunmuş məsul .şəxs və ya müvafiq şöbənin nümayəndəsinin iştirakı ilə kafedrada keçirilən təqdimat əsasında qiymətləndirilir.

6. Buraxılış işi

6.1. Təhsil Proqramı sahələr üzrə buraxılış işi (tamaşa, bədii və ya televiziya filmi,televiziya layihəsi )İlə tamamlanır.

6.2. Təhsil müddətinin sonunda müdafiəyə əvvəlcədən sahələr üzrə müəyyən edilmiş janr, mövzu və xronometrajda tamaşa, bədii və ya televiziya filmi,televiziya layihəsi təqdim edilir.Qiymətləndirmə buraxılış işnin xüsusiyyətlərinin komponetlərinə müvafiq meyarlara əsasən qiymətləndirilir.

## 7. Məşğulluq və Ömürboyu təhsil

7.1. Teatr rejissoru, kino rejissoru, televüziya rejissoru ixtisaslaşmaları üzrə məzunlar qazandıqları bilik, bacarıq və vərdişləri aşağıdakı sahələrdə reallaşdıra bilər:
ədəbi yaradıcılıqda:dramaturji mətn,ssenari əsasında və ya öz ideyası və planına əsasən (başqa bir ədəbi əsərdən istifadə edərək orijinal və ya yazılı) bir konsepsiya hazırlaya bilməlidir və müxtəlif janrlarda tamaşalar,bədii filmlər yaratmaq və ictimaiyyətə nümayiş etdirirmək, teatr,kino,televiziya sənətinin təbliği İşində fəal iştirak etməlidir. İxtisaslaşmaya müvafiq olaraq tamaşalar,müxtəlif səpkili televiziya verlişlərinin ssenarilərinin hazırlanmasını təşkil və reallaşdıtmaq bacarığına malik olmalıdır. İstehsalat- texnoloji (quruluş):teatrlarda müasir səhnə texnologiyalarından, rekvizitlərdən; film yaradıcılığı prosesində müasir film istehsalının texniki və texnoloji imkanlarından istifadə etməyi bacarmal ı/dır.
Təşkilatçılıq və idarəetmə: ixtisaslaşmaya müvafiq olaraq dramaturji mətn, ssenari müəllifi, aktyorların, kinooperatorun, rəssamın, bəstəkarın, səs mühəndisinin və yaradıcı qrupun digər üzvlərini.vahid konsepsiya ətrafında birləşdirmək və istiqamətləndirməq , tapşırıqları savadlı, düzgün və dəqiqi qoymağı bacarmahıdır;

7.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

7.3. Rejissorluq üzrə bakalavr proqramının məzunları təhsillərini Rejissorluq (əməli), Rejissor sənətinin tarixi və nəzəriyyəsi, Aktyor sənəti magistr proqramlarında davam etdirə bilər.

7.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Razılaşdırılmışdır:

Azərbaycan Respublikasının Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini,
Elpt,-atn/ə orta ixtisas təhsil şöbəsinin müdiri
^rwb-Pirjyev
<0$ 2020-ci il “

Mədəniyyət və incəsənət ixtisasları
qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri
Ceyran Mahmudova
08 2020-ci il

Əlavə 1

Təhsil Proqramının təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) | |
|---|---|
| PTN 1 | Teatr rejissoru: Səhnə əsərlərində əsas 3 janr: komediya, dram faciə və kiçik janrlar: melodram, fars, operetta janrlarını fərqləndirməyi bacarmalıdır. Rejissorun pyes üzərində işi - pyesin təhlili, rejissor şərhi, rejissor fikri barədə ilkin nəzəri məlumatları bilməlidir. Pyesin təhlilini təşkil edən amillər: mövzu, süjet, janr, konflikt barədə ilkin nəzəri biliklərə yiyələnməlidir;<br>Kino rejissoru: Kinematoqrafın tərkib hissəsi olan dramaturgiya qanunları ilə tanışlıq, ideyanın yaranmasından başlayaraq dramaturji əsərə çevrilməsinə qədər lazım olan xüsusiyyətlər, dramaturji əsərin audiovizual əsərə transformasiya bacarığına yiyələnməlidir; Televiziya rejissoru: Qarşıya qoyulan predmetdən asılı olmayaraq onu xırda detallarına qədər incələmək, ədəbi ssenari üzərində işləyərkən ideyanı müəyyənləşdirərək ali məqsədini formalaşdırmaq. |
| PTN 2 | Teatr rejissoru: Obrazlı təfəkkürə, varlığın bədii təxəyyül vasitəsi ilə qavranılma qabilliyyətinə malik olmalıdır. Nitqin bütün imkanlarından, onun diksiya, intonasiya-melodik və orfoepik qaydalarından istifadə etməklə digər ifaçılarla vahid ansamblda çalışmağı bacarmalı/dır, Aktyor üçün zəruri olan xarici forma və psixofiziki vəziyyəti qorumağı, rol üzərində işləyərkən psixotexnikadan, ifadəli plastikadan, mimik imkanlardan istifadə etməyi , yeri gəldikcə, ayrı-ayrı tarixi dövrlərin etiket və davranış qaydalarını yerinə yetirməlidir.<br><br>Kino rejissoru: Dünya praktikasında tətbiq edilən audiovizual əsərin “loqlayn”-ından başlayaraq kinossenari və rejissor ssenarisinin yazılma qaydaları ilə tanışlıq və bununla bağlı əməli təcrübəni mənimsəmək.<br>Televiziya rejissoru: Ədəbi materialı sözbəsöz, sətirbəsətir, cümləbəcümlə xırdalamaq üçün mövzunun sadə elementlərini bilməklə kifayətlənməyərək, onu nəzəri cəhətdən mükəmməl mənimsəmək, ideyanın maddiləşmə imkanlarını, konkret ifadə vasitələrindən istifadə zərurətini təsəvvür etmək. |
| PTN3 | Teatr rejissoru: Tamaşada, teletamaşada rol üzərində işləyərkən yaradıcı təşəbbüs göstərməyə hazır olmaq; yaradıcı kollektivdə vahid bədii konsepsiya çərçivəsində işləməyi bacarmalı/dır. Müəllif sözünü, dramaturqun obrazlar sistemini, əsərin stilistikasını, ideya-bədii təsir gücünün mahiyyətini aşkarlamaq.<br><br>Kino rejissoru: Bədii ifadə vasitələrinin ən mühüm hissəsi hesab edilən montaj və onun qaydaları ilə tanışlıq, montaj təfəkkürü, texnikası və növləri ilə müəllif fikrini qabartmağı bacarmalı/dır.<br>Televiziya rejissoru: Bu və ya digər televiziya layihəsi üzərində çalışarkən öz fikirlərini həmkarlarına çatdırmaq, onların fikir və təkliflərini nəzərdən keçirmək üçün peşənin nəzəri və təcrübi aspektlərini mənimsəmək. |
| PTN 4 | Teatr rejissoru: Səhnə dialoqlarında tərəf-müqabilinə müxtəlif vasitələrdən, metod və üsullardan istifadə edərək sözlə peşəkar təsir etməyi; Personajın səciyyəvi |

| | |
|---|---|
| | xüsusiyyətlərinə müvafiq xarakterik tipini yaratmaq, digər iştirakçılarla vahid tempo-ritmik, İntonasiya-melodik və janr üslubuna müvafiq ansambl oyun bacarığı.<br><br>Kino rejissoru: Kinematoqrafda tətbiq edilən audio-vizual İfadə vasitələrinin xüsusiyyətləri və onların əhəmiyyəti. İşıq və kölgə, kompozisiya qanunları və növləri, söz, musiqi və küylər, eləcə də müasir praktikada tətbiq olunan xüsusi effektlərdən istifadə üsullarını mənimsəmək.<br>Televiziya rejissoru: Ssenari müəllifi ilə ssenari üzərində iş birliyi, audiovizual əsərin hazırlanmasında gərəkli olan təşkilatçılıq qabiliyyətini formalaşdırmaq, tamaşaçıları ekran qarşısında saxlamağın sirrlərini öyrənərək nəzəri bilikləri əməli iş ilə uzlaşdırmaq. |
| PTN5 | Teatr rejissoru: Rol üzərində rejissor niyyətinə uyğun müstəqil işləmək, tipaj seçimində müxtəlif bədii üsul və vasitələrdən istifadə etmək. Hər hansı pyesin və ya filmin təcəssüm prosesində yaradıcılıq mühitini yaratmaq. Gələcək tamaşanın, yaxud filmn ədəbi materialı üzərində konseptual yaradıcılıq axtarışı aparmaq. Aktyor oyunu vasitəsi ilə rejissor konsepsiyasının bədii-estetik reealizəsinə nail olmaq.<br><br>Kino rejissoru: Kinematoqrafın modelləri - prodüser kinosunun müstəqil filmlərdən fərqi, rejissor-ssenari müəllifi, rejissor-operator, rejissor-rəssam, rejissor-bəstəkar, rejissor- prodüser münasibətləri, audiovizual əsərin bütün mərhələləri: pre-production, production, post-production və promotion mərhələləri ilə ətraflı tanışlıq.<br>Televiziya rejissoru: Telelayihə istehsalının “Pre-prodact” mərhələsində rejissorun kağız üzərində işinin qüsursuz yerinə yetirilməsi üçün peşə incəliklərinə yiyələnərək qarşıya qoyulan tapşırığa peşəkar yanaşma tərzini nümayiş etdirmək. |
| PTN6 | Teatr rejissoru: Rejissorun aktyorla işi ilə bağlı müxtəlif nəzəri və praktik biliklərin formalaşması, müxtəlif sistemlər, məktəblər haqqında məlumatların əldə edilməsi. Peşə fəaliyyətində müxtəlif janrlı səhnə və ekran əsərlərində (teatr, kino, televiziya) müvafiq ifadə vasitələrinin tətbiqinə yiyələnməlidir:<br><br>Kino rejissoru: Xüsusi effektlər və onların kinematoqrafiyada istifadə zərurəti ve spesifikası, optik, mexaniki, vizual effektlər, kompüter texnologiyası və onların mahiyyəti, kinematoqrafın bir qolu olan animasiya filmləri, animasiyada həm müstəqil, həm də digər sahələrlə sintezli şəkildə İstifadə zərurəti haqqında ətraflı bilgilərin mənimsənilməsi.<br>Televiziya rejissoru: “Əhəmiyyətsiz heç nə yoxdur” prinsipi ilə çalışaraq gündəlik informasiya proqramlarından sənədli televiziya filmlərinə qədər, idman reportajından mürəkkəb quruluşlu filmlər, tamaşalar, seriallara qədər bütün sahələrdə özünə və yaradıcı qrupun digər üzvlərinə eyni tələbkarlıq və peşəkarlıqla yanaşaraq fəaliyyət göstərmək vərdişlərini aşılamaq. |

Əlavə 2

Təhsil Proqramının təlim nəticələrinin matrisi

| | | Proqramın təlim nəticələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Blokun adı | Fənlərin adı | PTN1 | PTN2 | PTN3 | PTN4 | PTN 9 | PTN6 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | |
| | Azərbaycan tarixi | X | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | |
| İxtisas fənləri | İxtisasa giriş (sahələr üzrə) | X | | | | | |
| | Rejissor sənəti (sahələr üzrə) | X | X | X | X | X | X |
| | Aktyor sənəti (sahələr üzrə) | | X | X | | | |
| | Rejissorun aktyorla işı | | | X | X | X | X |
| | Multikulturalizmə giriş | X | | | | | |
| | Mülki müdafiə | X | X | X | X | X | X |
| Təcrübə | | | X | X | X | X | X |

Əlavə 3

Fənnin təlim nəticələrinə nail olmalıdır, məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları

| Fənnin adı | Təlim nəticələri | Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları | Hər bir təlim nəticəsi üçün İstifadə olunan qiymətləndirmə üsulları |
|---|---|---|---|
| | ■ İxtisasa giriş (sahələr üzrə) | | |
| Rejissor sənəti (sahələr üzrə) | Teatr rejissorluğu:<br>• Teatr rejissorluğunun əsasları, tarixi və nəzəriyyəsi ilə bağlı biliklərə malik olmalı. Etüdlər və çalışmalar və məşqlər etməyi bacarmalıdır. | təqdimatlar, əməli nümunələr, məşqlər və müzakirələr. | əməli təqdimatlar kurs tamaşaları,<br>fərdi təcrübə hesabatları; |

| | | | |
|---|---|---|---|
| | • Etüdün əsas vəzifəsini və hadisəsini təyin edilməsi, rejissorluq texnikasının elementlərini (atmosfer, temp- ritmi, mizansəhnə, kompozisiya) bilməlidir.<br>• Səhnə məkanı və vaxtınının mənimsəməyə dair etüdlər üzrəində məşqlər etməyi bacarmalıdır.<br>• Təsviri sənət, bədii ədəbiyyat və musiqi əsərlərinin mövzuları əsasında etüdlər hazırlamağı bacarmalıdır.<br>• Dram əsərlərinin rejissor təhlili .hadisənin təhlili metodu və onun qanunlarını bilməli<br>• Müstəqil seçilmiş bir pyes mövzusunda kompozisiyaların hazırlanmağı, onların mövzusu, ideya və janrının təyin etməyi,səhnələşdirilməyi bacarmalıdır.<br>• Tamaşada rejissor niyyəti və tamaşanın quruluş həlli ilə bağlı bilgilərə malik olmalıdır. Tamaşaya hazırlığın mərhələ1ələri:rejissor niyyəti, quruluş planı, tamaşanın ekspozisiyası, yaradışı kollektivin təşkili barədə nəzəri bilgilərə yiyələnməli və əməli məşqlər keçirməyi bacarmalıdır.<br>• Dram, musiqili və musiqili - dram materialın həlli üzərində işləməyi bacarmalıdır. Tamaşanın quruluş planı planı: eskiz və maketini hazırlanmağı bacarmalıdır..<br>Tamaşanın səhnəqrafiyası, işıq, musiqi həlini təmin etməyi bacarmalıdır. | | |
| Aktyor sənəti | ■ Aktyorluq məktəbləri ilə tanışlıqdan sonra təklif olunmuş vəziyyəti təhlil edərək təxəyyülün formalaşmasına nail olmalı və rol üzərində müstəqil işləmə qabiliyyətini təlqin etməli;<br>■ Aktyorun vəziyyətini təşkil edən dörd elementi mənimsəməli: diqqət, sərbəstlik (əzələ gərginliyindən azad olma), inam (təklif olunmuş vəziyyətin qiymətləndirilməsi), və hərəkət (hərəkət etmək zərurətinin yaranması);<br>■ Teatr və kino aktyorluğunun prinsipial fərqlərini müəyyən etməyi bacarmalı, mizankadrda, kamera qarşısında aktyor oyununun incəlikləri ilə tanış olmalı; | Məşqlər, təqdimatlar,əməli nümunələr və müzakirələr. | əməli təqdimatlar; fərdi təcrübə hesabatları; |

| | | | |
|---|---|---|---|
| | ■ Mətnin təhlili və tam mənimsənilmə üsullarənə mənimsəməli, müəllifin ideyası ətrafında fikir mübadiləsinin aparılma, təyin olunmuş çərçivədə improvizə yollarını öyrənməli;<br>■ Rolun psixoloji və hadisəli təhlili, aktyor ifasının məntiqə söykənmə zərurəti, aktyorun ifa tərzinə təsir edən janr faktoru ilə tanış olmalı;<br>■ Kameraya işləmək vərdişini inkişaf etdirilməli, obyektiv və işıq məfhumlarına alışmalıdır. | | |
| Rejissorun aktyorla işı | ■ Ədəbi əsərin təhlili yollarını öyrənməli, əsərin mövzu və ideyasını müəyyən etməklə rol bölgüsünün prinsiplərini, kameranın obyektivi və dördüncü divar məfhumlarını mənimsəməli;<br>■ Personajların aktyorla birgə təhlilinin xüsusiyyətlərinə yiyələnməli və aktyorlara audiovizual əsərin rejissor yozumunu təlqin etmək bacarığına yiyələnməli;<br>■ Aktyora rolun ali məqsədinin müəyyən olunmasında köməklik göstərməklə onları bu məqsəd ətrafında birləşdirmək bacarığına yiyələnməli;<br>■ Tərəf müqabilləri arasında ünsiyyətə nail olmalı, pauzaların işlənməsi və daxili monoloqdan istifadə etmək zərurətini mənimsəməli;<br>■ Aktyorlara dəqiq və konkret tapşırıqlar verməklə onlarla çoxplanlı işin qurulmasına nail olmağı öyrənməli;<br>■ Obrazın daxili vəziyyəti ilə fiziki hərəkətlərinin orqanikasına nail olmalıdır, vərdişlərini əldə etməli. | Məşqlər, təqdimatlar,əməli nümunələr və müzakirələr; | əməli təqdimatlar (kurs tamaşaları,diplom tamaşaları kurs işi, diplom filmi); |
| Kamera qarşısında iş | ■ Kino sənətinin yaranması və İnkişaf tendensiyaları, onun ifadə vasitələri və teatrdan fərqli elementləri barədə əsas biliklərə yiyələnməli;<br>■ Kinoda miqyas planları, kompozisiya və hərəkətli kamera barədə fundamental bilgilər almalı;<br>■ Teatr səhnəsi və kadrın çərçivəsi daxilində oyun fərqlərini anlamalı;<br>■ Reaksiyaların mahiyyəti. Göz xətti anlayışı və əl altında olan vasitələrin (butafor/rekvizitlərin) oyun zamanı istifadə | təqdimatlar, əməli nümunələr və müzakirələr; | əməli təqdimatlar (kurs işi, diplom filmi); |

| | | | |
|---|---|---|---|
| | üsullarım mənimsəməli;<br>■ Çəkiliş meydançasında iş prosesi, işıqlandırma növləri, oyun xətti və 180 dərəcə qanunu barədə əsas bilgilər əldə etməli;<br>■ Rejissor peşəsi və rejissor - aktyor münasibətləri, onların iş prinsipləri barədə məlumatlanmalı. | | |
| Multikulturalizmə giriş | • Multikulturalizmin mahiyyəti, multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi_ müqayisəli təhlili ilə bağlı biliklərə yiyələnməlidir:<br>• Dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmaq. .<br>• Multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi baça.rmaq.<br>• Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri barədə biliklərə yiyələnməlidir. | mühazirə;<br>seminarlar;<br>hesabatlar;<br>təqdimatlar və müzakirələr. | yazılı tapşırıqlar;<br>şifahi təqdimatlar;<br>təcrübə hesabatları;<br>frontal sorğu. |
| Mülki müdafiə | ■ Mülki müdafiənin əsasları, qüvvə və vasitələrini, fövqəladə hallar və onların xarakteristikalarını bilməli;<br>■ Fövqəladə hallarda əhalinin mühafizəsini, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsini, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarmalı;<br>■ Fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymətləndirilməsini, həmçinin fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkilini və həyata keçirilməsini mənimsəməli. | mühazirə;<br>seminarlar;<br>hesabatlar;<br>təqdimatlar və müzakirələr. | yazılı tapşırıqlar;<br>şifahi təqdimatlar;<br>frontal sorğu. |